# Qubanın Novruz adətləri



**İnsanın həyatında rastlaşdığı nə varsa, onun yaddaşına fərqli izlər buraxır. Onların ayrılıqda sənə verdiyi duyğular müxtəlif kateqoriyalara bölünür. Bəşəri dəyərlər içində yeganə bahar adət-ənənələridir ki, bütünlükdə insan və təbiətin birgə təmasından yaranıb. Bahar canlı və cansız dünyamız arasında bütün fərqləri aradan qaldıran möhtəşəm bərabərlik fəslidir.**

Azərbaycanın qədim və gözəl məkanlarından olan Quba Novruz bayramı ənənələrini qoruyub saxlayan yurd yeridir. Bura ölkəmizdə azsaylı xalqların, etnik qrupların əmin-amanlıq şəraitində yaşadığı bölgədir. Qubada yaşayan 160 minə yaxın insanın 20 mini tat və ləzgi, 4 mini xınalıqlı, 2 mini mexseti türkü, 3800 buduqlu, 2000 qrızlı, 1000-dən çoxu gürcü, tatar, ukraynalı, belarus, 4000 mindən çoxu isə yəhudidir. Amma burada yaşayanlar bir ocağın başına yığışmış mehriban ailədir. Bu ocaq onları bir varlıq kimi birləşdirir, xeyirdə, şərdə bir yerdə olmağı öyrədir.

Bahar adətlərində bu birlik daha çox üzə çıxır. Hərənin Novruz xonçasına qatdığı rəng sonda milli adətlərimizə çevrilib. Qubada deyirlər ki, bahar qapını döyüncə yeddi bostanın yeddi göyünün qutabını yemədinsə, demək, sən hələ qışla əlləşirsən. Axır çərşənbədə bulaq başına yığışar, suyu qablara doldurub göyərən torpağa səpərlər ki, bərəkət buralara hakim olsun. Sonra kol altından keçərlər ki, azardan, bezardan və şeytandan uzaq olsunlar.

Bayram gecəsi hərə evində bişirdiyindən qonşusuna pay göndərər, əlil və xəstələri ziyarət edərlər. Nügədi kəndinin cavanları Bəhyə dağına qalxar, ən hündür zirvədə tonqal qalayarlar. Kənddə bişirilən paxlava, şəkərbura, qoğal dolu xonçalar ev-ev paylanar. Papaqatdıda iştirak edən uşaqlar topladıqlarını bölər və ləzzətlə onu ocaq başında şirin-şirin yeyərlər.

Buduqlular bayram axşamı qovurmalı, yaxud cücə-plovdan başqa, əriştəli aş da bişirərlər. Sonuncunu ruzi rəmzi kimi qonşulara paylayarlar. Buduqda nə bişirərlərsə, hamısına mütləq şəkər qatarlar ki, gələn günlər xoş olsun. Xınalıqlılar Novruzda nişanlı qız evinə yeddi pay göndərərlər. Buna Xınalıq dilində "yıg tikə" deyirlər. Sevgi, sağlamlıq, mehribanlıq, bərəkət, ruzi, sədaqət və övlad rəmzlərini özündə ehtiva edən yeddilik gənc ailəyə dilənən arzulardır.

Qırmızı qəsəbədə yaşayan yəhudilər də bu bayramı eyni coşqu ilə qarşılayırlar. Nizami parkında qalanan tonqalın başında dövrə vuran tat, ləzgi, xınalıqlı, yəhudi, belarus, tatar və digərləri birgə şənlənir, Azərbaycanı vahid ailə kimi tərənnüm edirlər.

Bayramda qocaların, kimsəsizlərin, kasıb yaşayan əhalinin, çoxuşaqlı ailələrin qapısını açmaq təkcə adət deyil, həm də düşüncə tərzidir. Kənddə, qəsəbələrdə və rayon mərkəzində qonşular əllərində xonçalarla onları ziyarət edər, paylarını bölüşərlər. Qubada bir də şəhid məzarları ziyarət edilər. Şəhid ailələri üzvlərini qonşular evlərinə dəvət edər, xatirələri yada salarlar.

Bayramın on üçüncü günü Qudyalçayın sahilində böyük canlanma olar. Hamı əlindəki səmənisini suya atar və niyyət edər. Bura hərə bir arzu ilə gələr. Kənarda isə ötən il niyyət edənlər şirni paylayar, sevinclərini bölərlər.

Beləcə Bahar göylərin yerə növrağını çatdırar. Yurdumuzda Günəş parlar, təbiət yuxudan ayılar. Kainatın bir parçası olan Azərbaycanımızın hər güşəsinə Bahar ətri yayılar.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2026.- 13 mart (№ 47).- S.10.